**AZƏRBAYCAN RESPUBLİKASI**
**SƏHİYYƏ NAZİRLİYİNİN KOLLEGİYASI**

# QƏRAR

**№ 58**

**Bakı şəhəri** “ 30 “ sentyabr 2016-cı il

## “Özəl tibb fəaliyyəti subyektləri tərəfindən göstərilən tibbi xidmətlərin və həkim resepti olmadan buraxılan dərman vasitələrinin reklamına rəy verilməsi qaydası barədə” Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Kollegiyasının 2013-cü il 7 may tarixli 19 nömrəli qərarının ləğv edilməsi haqqında

“Reklam haqqında” Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununun tətbiqi və “Reklam haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 noyabr tarixli 644 nömrəli Fərmanının ləğvi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli 554 nömrəli Fərmanının 1.3-cü bəndinin və 3-cü hissəsinin icrasını təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 13 fevral tarixli 363 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Mərkəzi icra hakimiyyəti orqanlarının Nümunəvi Əsasnaməsi”nin 17-1.6-cı bəndinə uyğun olaraq Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. “Özəl tibb fəaliyyəti subyektləri tərəfindən göstərilən tibbi xidmətlərin və həkim resepti olmadan buraxılan dərman vasitələrinin reklamına rəy verilməsi qaydası barədə” Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Kollegiyasının 2013-cü il 7 may tarixli 19 nömrəli qərarı ləğv edilsin.
2. Hüquq və daxili nəzarət sektoruna (E.Əzizov) tapşırılsın ki, bu qərar 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.
3. Qərarın icrasına nəzarət Nazir müavinlərinə həvalə edilsin.

**Kollegiyanın sədri,**
**Nazir** **Oqtay Şirəliyev**

**Kollegiyanın məsul katibi** **Nərgiz Şahbazova**